# "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanını "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1388-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8, III kitab, maddə 610; 2001, N 10, maddə 646; 2002, N 5, maddələr 273, 279, N 7, maddə 413, N 8, maddə 478, N 9, maddə 563; 2003, N 8, maddə 434; 2004, N 1, maddə 19, N 5, maddə 345; 2005, N 1, maddə 18, N 4, maddə 299, N 9, maddə 799, N 12, maddə 1101; 2006, N 8, maddə 676, N 11, maddə 935; 2007, N 1, maddə 10, N 3, maddə 223, N 9, maddə 865, N 12, maddə 1247; 2008, N 1, maddələr 7, 10; 2009, N 7, maddələr 531, 534; 2010, N 7, maddə 615; 2011, N 11, maddə 999; 2013, N 5, maddə 509, N 6, maddə 649, N 8, maddə 900; 2014, N 4, maddə 348, N 6, maddə 625; 2015, N 12, maddələr 1450, 1461) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissə üzrə:

1.1. beşinci abzasda "və 213-cü" sözləri ", 213-cü, 213-1.3-cü və 213-1.4-cü" sözləri ilə əvəz edilsin;

1.2. doqquzuncu abzasda "213-1-ci maddəsində nəzərdə tutulmuş cinayətə dair iş" sözləri "213-1.1-ci və 213-1.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər" sözləri ilə əvəz edilsin.

2. 4-cü hissəyə "idxal etmə" sözlərindən sonra ", belə məhsulların (malların) nağd qaydada alqı-satqısı" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2016-cı il*